Firdun bəy Köçərli - 150

İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi

2013-cü ildə Azərbaycanın görkəmli ədəbiyyatşünas alimi, tanınmış maarifpərvər, ictimai xadim, publisist yazıçı, tənqidçi və tərcüməçi Firdun bəy Əhməd ağa oğlu Köçərlinin anadan olmasının 150 illiyi tamam oldu. F.Köçərli 1863-cü il yanvar ayının 26-da Azərbaycanın füsunkar diyarlarından biri olan, bu gün nankor qonşularımız ermənı millətçilərinin işğalı altında qalan Şuşa şəhərində anadan olmuşdur. F.Köçərlinin həyatı və elmi-pedaqoji fəaliyyətinin əsas dövrü, həm də ən məhsuldar illəri demək olar ki, 1876-cı ildə Gürcüstanın Qori şəhərində əsası qoyulmuş, tarixə Qori Müəllimlər Seminariyası kimi daxil olmuş, Zaqafqaziya Müəllimlər Seminariyası (ZMS) ilə bağlı olmuşdur.

Məhz buna görədir ki, F.Köçərlinin həyatı və yaradıcılığından söhbət düşəndə təbii olaraq ilk növbədə Qori Müəllimlər Seminariyası göz önündə canlanır. Molum olduğu kimi, XIX əsrin ikinci yarısından etibarən Cənubi Qafqazda, o cümlədən Azərbaycan kəndlərində təşkil edilən və açılması nəzərdə tutulan dövlət məktəblərinin müəllim kadrlarına, xüsusilə də azərbaycanlı müəllimlərə olan ehtiyacı azərbaycanlılar üçün ayrıca seminariya və ya şəbənin təşkilini hoyatı zərurət kimi qarşıya qoydu.

Bu zərurət hökumətı müəllimlər seminariyaları haqqında olan ümumi qanundan kənara çıxmağa, seminariyalarını bəzisində nəinki təkcə "provoslavlar", həm də xristian olmayan digər milletlərin nümayəndələrinin de oxumasına icazə vermaye məcbur etdi. Bütün bunlar onunla nəticələndi ki, 1879-cu il sentyabrın 23-də Qori şəhərindəki ZMS nəzdində ayrıca bir şöbə - Azərbaycan şöbəsi açıldı. Azərbaycanlılardan müəllim kadrları hazırlamaq kimi tarixi rol hemin şöbənin öhdəsinə düşdü. İlk dəfə seminariyaya 32 nəfər qəbul olundu. Bunlardan 24-ü A.O.Çernyayevski (1840-1894) tərəfindən yerlərdə seçilərək dəvət olunmuş, qalanları isə öz arzusu ilə gelmişdi. Onlardan 19-u şöbənin əsas siniflərinə, 13-ü isə hazırlıq sinfinə qabul olundu. Seminariyaya ilk qəbul olunanlar içərisində gələcəyin meşhur pedaqoqlarından S.Vəlibəyov, F.Köçərli, R.Əfəndiyev və başqaları var idi. İlk dəfə qabul olunanlardan üçü Naxçıvan qazı mektəbindən, 13 nəfəri, o cümlədən F.Köçərli isə Şuşa şəhər mektəbindən idi.

Onu da qeyd etmək yerinə düşər ki, ilk dəfə təşkil edilməsinə baxmayaraq, Azərbaycan şöbəsinin tələbələri qabul imtahanlarında ela ilk ildən fərqlənirdilər. Rəsmi sənədlərdən birində oxuyuruq: "Çernyayevskinin tələbə toplamaq maqsədilə qəsdən ezam edilərək yerlərdə tələbə seçməsi və qismən imtahan etmesi nəticəsində azərbaycanlıların seminariyaya daxil olmaq üçün hazırlaşan xristianlardan ümumiyyətlə yaxşı imtahan vermələri aşkar olundu". Qabul olunmaq istəyənlərin sayı get-gedə artırdı. Qafqaz Tədris Dairəsinin inspektoru L.N.Modzalevski (1837-1896) 1880-ci ildə Tiflisə nəşr edilmiş "1802-ci ildən 1880-ci ilə qədər Qafqazda tədris işinin gedişi" adlı əsərində yazır ki, bu şöbənin birinci qəbuluna əsasən, şəhər və qəza mektəblərini bitirənlərdən 60-a qədər gənc azərbaycanlı gəlmişdi. Bunlar rus dilinə o qədər bələd idilər ki, ordan bir neçəsi hətta birbaşa seminariyanın ikinci sinfinə daxil ola bildi. Bu şöbənin ilk açılışı zamanı gözlənilməndən daha çox tələbənin gəlməsi və müvəffəqiyyətlə qabul imtahanı verməsi gələcəkdə müsəlmanların seminariyaya celb edilməsi üçün sünı tədbirlərin aradan qaldırılmasına əsas verdi.

Çarizmin uçqarlarda xalq maarifi sahəsindəki mürtəce siyasəti ilə eləqədar Azərbaycan şöbəsinin Azərbaycandan uzaqda, Qori şəhərində açılmasına baxmayaraq, onun təşkili XIX əsr müəllim kadrları hazırlığında yeni bir mərhələ təşkil edir. Bu şöbə təkcə Azərbaycan deyil, bütöv Cənubi Qafqazdakı Azərbaycan kəndlərindən üçün xalq müəllimləri hazırlığında mühüm rol oynadı. Hemin mozunlar Azərbaycanda xalq maarifinin hoyatı çərçivəsinə, dünyəvi təhsilin ən fəal intişar etdiricileri oldular. Azərbaycanda xalq maarifi, mədəbi, ədəbiyyat, mədəniyyət və incəsənətin bir çox sahələrinə böyük təsir etdirdi. F.Köçərli eyni zamanda tərcüməçilik fəaliyyəti də göstərmişdir. O, "Tolimati-Sokrat" kitabını (1881), A.S.Puşkin, M.Y.Lermontov, A.B.Koltsov və A.Seretelinin bəzi əsərlərini Azərbaycan dilinə, M.F.Axundzadənin "Aldanmış kovakib" əsərini isə rus dilinə tərcümə etmişdir.

Azərbaycan uşaq ədəbiyyatının inkişafında da onun mühüm xidmətləri olmuşdur. 1912-ci ildə nəşr edilmişdi "Balalara hədiyyə" adlı əsəri bu cəhətdən xarakterikdir.

F.Köçərlinin elmi-pedaqoji və maarifçilik fəaliyyətində ana dili, təlimin ana dilində aparılması ideyası mühüm yer tutur. Özünün sələfləri olan A.Bakıxanov, M.Ş.Vazeh, M.F.Axundzadə, H.Zərdabi, S.Ə.Şirvani, M.Şahtaxtlı və müasirlərin O.Q.Çernyayevski, müəsirləri olan S.Vəlibəyov, R.Əfəndiyev və başqaları kimi F.Köçərli da bütün hoyatı boyu ana dilinin qorunub saxlanılması, ana dilində moktəb ideyasının inkişafı yolunda yorulmadan çalışmış və zəngin irs qoymuşdur.

Azərbaycan xalqı əsrlər boyu ana dilində danışmaq, ana dilində yazmaq və bu dili yaşatmaq, saflığını qorumaq uğrunda mübarizə aparmışdır. Böyük Füzuli deyib ki, mən ərəb dilində ona göre yazıram ki, bu dildə təhsil almışam, fars dilində ona göre yazıram ki, bu dildə yazmaq dəbdədir, Azərbaycan dilində ona göre yazıram ki, bu mənim ana dilimdir.

Bəzi müəsirlərindən fərqli olaraq F.Köçərli İrəvan gimnaziyasında müəllimlik etdiyi zaman "Novoe obozrenie" qazetinin səhifələrində dərc etdirdiyi ilk maqalələrində xalqın təhsil sahəsində geridə qalmasını "Quran" və din ilə deyil, mollaların sandızdılığı ilə izah edirdi. O, "Çağırılmamış qonaq" adlı maqaləsində İrandan gelən başı çalmalı müəllimlərin xalqı cəhalətdə saxlamasının qarşısını almaq üçün düzgün təşkil edilmiş ruhani mektəbləri açılmasını faydalı hesab edirdi. Sonraki maqalələrində daha irəli gedən F.Köçərli köhnə moktəbin tənqidi, ana dilinin təlimi məsələləri, olifba, ana dili dərsliyi kimi mühüm məsələlər qaldırırdı.

XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycan dilinin qorunması və yaşaması uğrunda dövrün maarifçi-ziyalıları mübarizə aparır, dilimizi bəlağətli ərəb-fars, osmanlı sözlərilə dolduran mühafizəkarlara qarşı çıxırdılar. Onlar deyirdilər ki, Azərbaycan dili nə meyxanələrdə saqilərə meyxana deyonlərin, nə də mərsiyəxanalarda mərsiyə deyənlərin dili deyil, xalqın dilidir. Xalqın dili də təmiz, aydın, qəlizləşməyən, körpə uşağın da ifadə edə biləcəyi qədər aydın və sadə olmalıdır. Millətin maarif işığını yandıran böyük pedaqoq Firdun bəy Köçərli 1913-cü ildə ana dilinə bəsr etdiyi maqalələrinin birində yazırdı: "Azərbaycan türklərinin özünəməxsus dili var. Bizim qabil və mahir ədibələrimiz az olubdur. Amma olanlar da, ana dillərini sevibər və yazdıqlarını açıq-aydın yazıblar. Abbasqulu ağa Bakıxanovun "Nəsihətnamə"si, Mirzə Fətəli Axundovun komediyaları, Qasım bəy Zakirin moktubatı, Hacı Seyid Əzim Şirvaninin əşar və kəlamları, Həsən bəy Zərdabinin elm və fünuna dair yazdıqları kitablar və siyasi maqalələr - hər cümləsi açıq və aydın şəkildə yazılmışdır..."

Ana dilinin təlim və tərbiyəvi əhəmiyyəti məsələsində K.D.Uşinski, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvaninin tükənməz pedaqoji irsini davam etdirən F.Köçərli Azərbaycan dilini moktəblərdən sıxışdırılı çıxarmaq istəyən bəzi "maarif" çinovniklərinin qənimi kəsilmişdi.

O, ana dilində gözəl əsərlər yaradan A.Bakıxanovun, M.F.Axundovun, H.Zərdabinin, S.Ə.Şirvaninin ana dilini cani-dildən sevmələrini, açıq və aydın yazmalarını nümunə göstərir, ana dilinin saflığı uğrunda mübarizə aparırdı. O, dərsliklərdə "ata", "ana", "yaxşı" kimi çoxşiləndən eziz sözlərin "dərman üçün belə axtarılsa tapılmaması"nı "müqəllidlik və rəfər millətə xəyanət" hesab edirdi.

F.Köçərli ana dili məsələsində iki cəbhəyə qarşı mübarizə apardı. Bir tərəfdən rusləşdirma siyasəti yeridən ilminskilər, mirqiyevlər, levitskilər, digər tərəfdən isə doğma ana dilimizə "pozğunluq salanlar" koskin tənqid atəşinə tutduğu Əlifba məsələsindəki qüsurları da bunun üstünə gelən Köçərli yazırdı: "İndiyədək mənəvi tərəqqimizə mane olan illət bir isə, indi iki olur. Bir tərəfdən hürufat qüsuru, digər tərəfdən dil qüsuru əlimizi və ayağımızı bağlayıb qoymur ki, irəli gedək". F.Köçərli "dilin dolaşqılığını fikrin dolaşqılığı" kimi qiymətləndirir, "İbarəpəndazlıq fikrin boşluğuna və bir dərəcədə yoxluğuna dəlalət eylər" - deyirdi. O, millətini sevən, onun mənəvi dirliyinə çalışan, tərəqqisi yolunda əmək sərf edən yazıçılarımızdan, ədiblərimizdən və şairlərimizdən çox-çox təvəqqe edirdi ki, "dillərini asanlaşdırsınlar, ana dilindən uzaq düşməsinlər, meymunluqdan əl çəksinlər, fikirlərini açıq və sadə dildə yazsınlar, ta ki, onların yazdıqlarını oxuyan anlasın, düşünsün və aylısın".

K.D.Uşinskinin məlum fikirlərinə "bir millətin malını, dövlətini və hətta vətənini olindan alan ölüb itməz, amma dilini alsan fot olar və ondan bir nişan qalmaz" - sözlərilə qol-qanad verən F.Köçərli "Ana dili" adlı məşhur məqaləsində yazırdı: "Hər millətin özünəməxsus ana dili var ki, onun məxsusi malıdır. Ana dili millətin mənəvi diriliyidir, hoyatının mayesi monzilesindendir. Ananın südü bədənin mayesi olduğu kimi, ananın dili də ruhun qidasıdır, hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevir".

Əvvəlki maarifçilər kimi F.Köçərli də ərəb əlifbasının təlim işində tərəddüyü ongollərə bigənə qalmamış, onun qüsurlarını açıb göstərmiş, M.F.Axundovun başladığı işə ürəkdən tərəfdar olmuş və onu davam etdirmişdir.

F.Köçərlinin mühüm xidmətlərindən biri də Azərbaycanın görkəmli şair və yazıçıları ilə bərabər məşhur müəllim və moktəbdarlar haqqında da müfəssəl məlumat verməsidir.

F.Köçərli müəllimliyi özünə peşə seçib, ömrünün sonundak bu peşəyə sadiq qalanları yüksək qiymətləndirirdi.

F.Köçərli S.M.Qonzadənin dördə bir əsr xalq maarifi yolunda loyaqətlə çalışdığını yüksək qiymətləndirir, böyük hünər hesab edirdi. O yazırdı ki, 25 il xalq maarifi yolunda çalışmaq böyük hünərdir. "Bizim maarif qədri bilməyən avam camaat arasında bu əmri əmələ gətirmək daha böyük hünərdir".

F.Köçərlinin tədqir etdiyi pedaqoq-maarifçilərdən biri mohz öz müəllimi - Azərbaycan xalq müəllimlərinin ilkin dəstəsinin hamisi və tərbiyəçisi, ZMS Azərbaycan şöbəsinin müdiri A.O.Çernyayevski, digəri isə K.D.Uşinskinin Zaqafqaziyada ardıcıllarından olan məşhur gürcü pedaqoqu və maarifçisi Y.S.Qoqebaşvili idi.

F.Köçərlinin pedaqoji fikirləri içərisində tədris planı, proqram və dərsliklərlə bağlı olan bir çox maraqlı cəhətlər də vardır ki, onlar bu gün də ən aktuallığını saxlayır.

Milli moktəbdarlarımızdan Q.Zakir, Abdullabəy Asi, Ş.Ə.Şirvani, M.F.Axundov, Kazım ağa Salik, İsmayılbəyov Nakam, Mirzə Mehdi Naci və qeyrilərı kimi "xoşbəxt şairlər və dəqiq ədiblərin meydana gəldiyini" xüsusi qeyd edirdi. O, bu halı milli moktəblərimizin müvəffəqiyyətli cəhətləri ilə yanaşı, hem də milləmizin mərifət qabiliyyəti, təbii istedad sahibi olması ilə izah edirdi.

F.Köçərli xalqın ehtiyaclarını ödəmək, dərdinə çare axtarmağın yolunu da göstərməyə say edir və deyirdi ki, hər şey əql ilə, hünər, qeyrət və birlik ilə, səy və cəhd ilə, elm və mərifət nuru ilə elde edilir. Bir maarifçi-demokrat kimi F.Köçərlinin göstərdiyi esas, hol ledici çıxış yolu xalqı maarifləndirməkdən, mədənilləşdirməkdən ibarət idi. XX əsrin başqa maarifpərvər-demokratları kimi o da ictimai bəaların kökünü cəhalətdə, nadanlıqda, elmsizlikdə görür, maarifə, elmə xalqı azadlığa çıxaran bir vasitə kimi baxırdı. O, xalqı qərəl yuxusundan ayıltmağa cəhd edir, S.Ə.Şirvaninin "nadanlıq dərdinin dərmanı elmdir", "hər kimin elmi var, o insandır" müddəasını təbliğ edirdi.

F.Köçərli millətin naxoşluğunu müalicə edənlərə, xalqı cəhalət qaranlığından işıqlığa çıxaranlara - müəllimlərə ümid edirdi. O yazırdı ki, "müəllimlərin soyu və qeyrəti sayəsində çox qövm və tayfalar xoşbəxt olub ağ günə çıxıblar, şan və hörmət qazanıblar, dövlət və qüvvət kəsb ediblər".

O haqlı olaraq qeyd edirdi ki, müəllim moktəbin canı və içində olduğu camaatın çırağı məqamındadır. Müəllim öz peşəsini sevsə, öz şagirdlərini ovladı kimi istəsə, onların təlim və tərbiyəsinə can yandırsa, ohalinin gözünü açmağa və keyir yetirici biliklər ilə onları hoyata hazırlaşı böyük kəramətlər göstərə və xalqın rəğbət və hörmətini qazanar. Köçərli bələrinə misal olaraq Şəbəy Abakarov ilə Əhmədağa Musayevi göstərirdi.

F.Köçərlinin fikrinco, müəllimlərin öz əsvimli peşələrindən uzaqlaşmasının başlıca səbəblərindən biri do onların ehtiyacının ödənilməməsi ilə, hoddan ziyadə az movacib almaları ilə izah olunur.

"Bir peşə ki, öz ərbabını həmişə fəqir və zillətdə saxlaya, onun ehtiyaclarını nəco ki, lazımdır ödəməyə, acluqdan və susuzluqdan, istidən və soyuqdan özünü və oyalını mühafizə etməyə, o peşəyə dəxi əvəl etibarı tərəfindən artıq meyl və rəğbət olunmaz. O peşənin sahibi çalışır ki, özgə bir xeyirli işin və monfəətli kəsibin dalısınca getsin".

F.Köçərli nəinki kəndi moktəbləri, hem do gimnaziyalar üçün müəllim hazırlığında nozəroçarpan ciddi qüsurları tənqid edir, onun fikrinco, "gimnaziyalarda mahir və öz işlərinə bələd olan müəllimlərin yoxluğuna ümdə səbəb... kamil müəllim yetirən dərülmüəllimlərin yoxluğudur, o institutlar və dərülmüəllimlər ki, ondan müəllimlər hasilə gəlir, qayda üzrə təsis olunmamışdır. Onlarda pedaqoğika elminə dair və talimat işlərinə monasib məlumat verilməyib. Gimnaziya müəllimlərindən çoxlarını tanıyıram ki, pedaqoğika fənni və elminin bəsləri yalan Yan Amos Komenskinin və Johan Henrix Pestalotsinin adlarını eşitmiş olsunlar.

F.Köçərli bu qonaəə gəlir ki, ogər müəllimlərin dordinə çarə edilər, omək haqqı artırılarsa, onlar da çalışacaqlar ki, ohdələrinə gələn qüsurları tamam, hem do qeyri-tatarlara birlikdə aparılır. Təlim olifbadan başlanır.

Azərbaycan dilinin tədrisinə dair proqram tərtib etməyin tarixçəsi belə olmuşdur: Belə ki, 1886-cı ilə qədər Qafqazdakı dövlət moktəblərində öyrədilən yerli dillərin, o cümlədən Azərbaycan dilinin proqramı yox idi. Bu dillərin tədrisinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə QTD-nin pəpeçiteli K.Yanovski 1886-cı il mayın 10-da bütün moktəblər direksiyalarına sorəncam verərək qarşıdakı yay tətili zamanı yerli dil müəllimlərinin proqram tərtib etmələrini, hemin proqramların moktəblərin pedaqoji şuralarında müzakirə və təsdiq edildikdən sonra QTD-na göndərilməsini tapşırdı. Pəpeçiteli bu sorəncamı ilə eləqədar olaraq Bakı, Gəncə, İrəvan, Tiflis, Quba, Göyçay, ZMS-nin Azərbaycan bölməsi, Kürdəmir, Salyan və s. kəndlərdəki dövlət moktəblərinin Azərbaycan dili müəllimləri proqram tərtib etdilər. O cümlədən, İrəvan gimnaziyasının Azərbaycan dili müəllimi vəzifəsində işləyən gənc Firdun bəy do hemin proqramı tərtib etmişdir.

Köçərli bu proqramı 1886-cı ilin axırlarında, yeni müəssəqi müəllimliyə başladığı ilk dövrlərdə yazmışdır. O zaman nisbətən az təcrübəli olan gənc müəllimin dövrü üçün mütərəqqi şüal sayılan sövti-üsuldan istifadə etdiyi görünməkdədir.

Hemin proqramda Köçərlinin tədqir etdiyi pedaqoji prinsip induktiv olub, təlim prosesinda sadədən mürəkkəbə, asandan çətino qaydasına osaslanır. Bu iso, öz növbəsinda, keçilən materialın şagirdlər tərəfindən monimsənməsi üçün ən yaxşı təminat yaradır.

Proqram aşağıdakı hissələrdən ibarətdir: giriş hissəsi, hazırlıq sinfi, yazılı tənrinlər (Çernyayevskinin "Vətən dili" dərsliyi osasında), birinci sinif, ikinci sinif.

Proqramın giriş hissəsində müəllif Azərbaycan dilinin tədrisi, bu dilin təkco azərbaycanlılar üçün deyil, hem do digər millətlərdən, o cümlədən ruslar üçün məcburi olmasını qeyd edir. Proqramda müəllifin pedaqoji və metodiki fikirlərini əks etdirən "yazılı tənrinlər" bölməsində deyilir: "Tədris üsulu sövti-üsul olub sintetik yolla aparılır. Əvvəlcə tələffüzü asan, yazılışı sadə olan hərflər haqqında şagirdlərə molumat verilir. Hər bir hərf şəkilcə nə qədər sadə olsa da, müəllim tərəfindən qəşəng və səliqəli xətlə sinif lövhəsinə yazılır. Onun yanında isə irəliki dərslərdə öyrədilmiş hərflərdən təzə hərfə oxşayan və ona yaxın olan bir hərf yazılır. Şagirdlər bu hərfləri müqayisə edir, onların oxşar və fərqli cəhətlərini göstərir, ovvəlcə lövhədə, sonra isə öz dəftərlərində yazırlar. Bunun ardınca şagirdlərə tərkibində təzəcə öyrəndiklori hərf olan söz verilir, axırda hemin sözlərdən cümlə tərtib olunur".

Dövlət moktəblərində çalışan Azərbaycan dili müəllimlərinin hazırladıqları proqramlar Tiflisdə Mərkəzi Dövlət Arxivində saxlanılır. Biz bu proqramları saf-çürük edərək belə qanaəta gəldik ki, bu proqramlar içərisində daha çox diqqəti cəlb edən F.Köçərlinin "Ana dili" adlı proqramı olmuşdur. Doğrudur, S.Əzimin proqramı cəmi bir səhifədən ibarətdir. Buna baxmayaraq hemin proqram sadədən mürəkkəbə prinsipi ilə tərtib edilmişdir. Səs üsuluna osasən tərtib edilmiş bu proqram o zamanlar şəhər moktəbinin tələblərinə tam münasib idi.

F.Köçərlinin tərtib etdiyi proqram iso özünün elmiliyi ilə fərqlənir, pedaqoji və metodiki baxımdan daha yüksək idi.

F.Köçərli hemin proqramında Azərbaycan dilinin öyrədilməsində A.O.Çernyayevskinin "Vətən dili" dərsliyinin osas götürülməsini ayrıca vurğulayır və proqramın osas bölmələrindən birini mohz dərslik kimi A.O.Çernyayevskinin "Vətən dili" adı ilə qeyd etmişdir. O, birinci sinifdə oxu materiallarının ilk onco "Vətən dili"ndən, sonralar isə Vəzirovun "Müntəxəbat"ndan istifadə etməyi lazım bilirdi.

Məşhur rus şairlərinin kiçik şeirlərini isə Həsənəli xan Qaradağlının İ.A.Krılovun tərcümələrindən etdiyi tərcümələr osasında öyrənməyə-əzbərləməyə üstünlük verirdi.

Beləliklə do ikinci sinfin sonunda şagirdlər müstəqil oxumağı və diqto osasında daha ciddi maqalələri rus dilinə tərcümə edərək yazıb-oxumağı bacarmalı idilər.

Ümumiyyətlə, F.Köçərli öz müəllimi A.O.Çernyayevskinin "Vətən dili" dərsliyini yüksək qiymətləndirir, istər azərbaycanlı şagirdlərin, istərso do rusların bu dili öyrənməsində "Vətən dili"nə yüksəq mənbə, nümunəvi dərslik hesab edirdi. O, A.O.Çernyayevskinin vofatının 20 illiyi ilə eləqədar 7 dekabr 1914-cü ildə "Kaspi" qazetində dərc etdirdiyi məşhur məqaləsində yazırdı ki, türk-tatar sistemli dillərdə danışan xalqlar arasında ilk dəfə sövti-üsulla dərs keçmək təşəbbüsü bilavasitə hemin dərslik və Qori seminariyası ilə bağlı olmuşdur. O, yazmışdır: "Tamam islam aləmində bu təşəbbüs birinci dəfə Azərbaycanda ortaya çıxmışdır. Ana dili təliminda ondan istifadə edilməsi Azərbaycan moktəb tarixində mühüm pedaqoji hadisə idi. Azərbaycan ziyalılarının bütöv bir nəsli bu kitabdan dərs almışdır".

Mohz bunun noticəsi idi ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanlar, 1981-ci ilin oktyabrında A.O.Çernyayevskinin anadan olmasının 140 illiyinin qeyd edilməsi ilə eləqədar qəbul edilmiş qərarda "Vətən dili" dərsliyinin dil todrisində Şərqdə ilk dəfə tətbiq edilən səs metodu osasında tərtib edilməsi xüsusi qeyd olunmuş, "Vətən dili" dərsliyinin hər iki hissəsinin faksimile və transliterasiya qaydasında suvenir şəklində hazırlanıb çap edilməsi Dövlət nəşrkomu ilə birlikdə Ali və Orta İxtisas Təhsili Nazirliyi və Maarif Nazirliyine tapşırılmışdır. 2007-ci ildə "Vətən dili" dərsliyinin birinci hissəsinin nəşr edilməsinin 125 illinin tamam olması ilə eləqədar bu sətirlərin müəllifi tərəfindən hemin dərslik orəb əlifbasından müasir əlifbaya çevrilərək çap edilib oxucuların istifadəsinə verildi. Rusiya Dövlət Təhsil Akademiyasının prezidenti N.D.Nikandrov başda olmaqla, akademiyanın böyük bir dəstəsinin də iştirakı ilə Bakıda bu kitabın 125 illiyinə həsr edilmiş beynəlxalq konfrans da bu sahədə uğurlu todbirlərimizi kimi tarixə daxil olmuşdur.

Azərbaycan təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri bütün tarix boyu təhsildə daim novatorluğu, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər.

İlham ƏLİYEV

Hüseyn ƏHMƏDOV,
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor